# İNFORMASİYA FUNKSİYASI KİTABXANALARIN İNFORMASİYALAŞDIRILMASININ ƏSAS AMİLİ KİMİ

**E. M.ZƏRBALİYEVA**
***Bakı Dövlət Univeristeti***
***Kitabxanaşünaslıq kafedrasının dissertantı***

*Məqalə Kitabxanaların sosial funksiyalarından biri olan informasiya funksiyasına həsr olunmuşdur. Məqalədə kitabxanaların informasiya cəmiyyətində yeri və rolu, müasir cəmiyyətin tələblərinə uyğun olaraq onların fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və bu sahədə əsas aparıcı qüvvə kimi informasiya funksiyasının önəmindən danışılır.*

*Respublika kitabxanaları ilə xarici kitabxanalar arasında informasiya mübadiləsi üçün memorandum layihələri imzalanır, kitab mübadilələri həyata keçirilir, beynəlxalq konfranslar təşkil edilir.*

***Açar sözlər:*** *Sosial institut, müasir kitabxana, informasiya funksiyası, Milli Kitabxana-İnformasiya Mərkəzi, informasiya mübadiləsi*

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında saxlayan, onu informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxana sistemləri mühüm vəzifə daşıyır. Ona görə də müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşır ki, bunlar bir-birindən ayrılıqda düşünmək hər iki sahənin inkişafına mane ola bilər.

İnformasiya elmi-texniki tərəqqinin, elmi kəşflərin əsas bazası olmaqla bütün cəmiyyətin təşkilində aparıcı qüvvə olan, yeni insanın yetişməsində, formalaşmasında, təhsil və tərbiyəsində öncül rol oynayan bir vasitəyə çevrilmişdir. İnformasiya cəmiyyətinin inkişafında mühüm rol oynayan informatika elminin alimləri informasiya texnologiyalarının mühüm amil hesab etsələr də informasiya cəmiyyəti kitabxanalarsız keçinə bilməz.

Cəmiyyətin sosial institut kimi formalaşdırdığı kitabxanaların əsas sosial funksiyası da informasiya funksiyasıdır.

Sosial funksiya kitabxanaların xarici aləmlə, cəmiyyətlə əlaqələri, cəmiyyətin inkişafına təsiri, öz növbəsində isə cəmiyyətin kitabxana fəaliyyətinə təsiri kimi başa düşülməlidir. Sosial funksiya cəmiyyətin tələbatına uyğun formalaşır və bu tələbatın həyata keçirilməsinə xidmət edir. Belə ki, kitabxananın sosial funksiyaları içərisində informasiya funksiyası mühüm yer tutur. Hazırda bu funksiya daha böyük əhəmiyyət kəsb etməkdədir. Çünki XX əsrin 50-ci illərindən etibarən sənəd informasiyasına olan tələbat elə yüksək

səviyyəyə çatmışdı ki, bu tələbatı ödəmək üçün cəmiyyətdə informasiya orqanları heç bir cəhdlə kitabxanaları əvəz edə bilmirdi. Bu yalnız sosial və texnoloji funksiyaların mükəmməl şəkildə qarşılıqlı formada fəaliyyət göstərdiyi kitabxanalarda mümkün idi.

Həm texnoloji funksiyaların, həm də informasiya funksiyasının qarşılıqlı tətbiqi sayəsində kitabxanaların fəaliyyət məzmununda, oxucuya xidmət prosesində yeniliklər baş verdi. Kitabxanalara texnikanın sürətli tətbiqi ilə əlaqəli olaraq ənənəvi sənəd toplusu ilə yanaşı, elektron informasiya daşıyıcıları da yaranıb fondda yer almağa başladı və əsrin sonunda demək olar ki, kitabxanaların həcmcə az, lakin, məlumat çoxluğuna görə böyük tutumlu vəsaitinə çevrildi. Bu proses bütün ölkə kitabxanalarını sürətlə bürüməyə başladığı üçün avtomatlaşdırma və kompüterləşdirilmə prosesləri zəruri hal kimi kitabxana proseslərinə tətbiq edilməyə başladı. Bu proseslər isə informasiya funksiyasının ön plana keçməsinə, kitabxanaşünaslıq elminin bir sıra elmlərlə dərin təmasına, qarşılıqlı araşdırmalar apararaq gəlinən elmi nəticələrin tətbiqi barədə zəruri tələbat yaratmasına səbəb oldu.

Hazırda cəmiyyətin kitabxanaları və kitabxana nümayəndələri tərəfindən informasiya funksiyası özünün layiqli dəyərini almaqdadır. Digər sosial funksiyaların yüksək səviyyədə həyata keçirilməsi üçün informasiya funksiyası əsas rol oynayır. Çünki informasiya olmadan, yaradılmış, toplanmış informasiya resurslarından istifadə etmədən nə elm, təhsil, nə tərbiyə inkişaf edə bilər. Hazırda respublikamızın bütün kitabxanaları bu sahədə məqsədyönlü iş aparır, informasiya xidmətini müvəffəqiyyətlə təşkil etmək üçün digər informasiya orqanları ilə əməkdaşlığa xüsusi önəm verirlər. İnformasiya funksiyasını həyata keçirmək üçün qarşılıqlı beynəlxalq əlaqələr ildən ilə genişlənir. Respublika kitabxanaları ilə xarici kitabxanalar arasında informasiya mübadiləsi üçün memorandum layihələri imzalanır, kitab mübadilələri həyata keçirilir, beynəlxalq konfranslar təşkil edilir.

Kitabxanaların informasiya funksiyasının inkişafına yardım göstərən bir sıra dövlət proqramları oldu ki, buna «Azərbaycan Respublikasında kitabxana–informasiya sahəsinin 2008–2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nı misal göstərmək olar.

Proqramın icrası kitabxanalara böyük yeniliklər gətirməklə yanaşı informasiya funksiyasının yenilənməsinə, inkişafına böyük təkan verdi. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının nəzdində kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və Elektron kataloqların ümumi Toplu Kataloqu və AZLİBNET Milli Kitabxana-İnformasiya Mərkəzi yaradılması buna misal ola bilər. Toplu Kataloqun geniş təqdimatı keçirildikdən və kataloq istifadəyə verildikdən sonra, Azərbaycan Diplomatik Akademiyasının Elmi Kitabxanasının elektron bazasına daxil edildi. Kitabxanalarda oxucu auditoriyasını genişləndirmək məqsədi ilə bir çox





kitabxanaların oxu zalında Wİ-Fİ zonaları yaradıldı. Proseslərə təkan olaraq Göyçay, Quba, Neftçala, Ucar, Laçın, Füzuli, Salyan və Masallı rayon mərkəzləşdirilmiş kitabxana sistemləri müasir inventar və avadanlıqlarla təmin olundu. Gəncə şəhər, Beyləqan, Xaçmaz, Göyçay, İsmayıllı, Salyan, Şabran və Neftçala rayon MKS-ləri Nazirlik tərəfindən elektron nəşrlərlə təmin edildi.

Adı çəkilən Dövlət Proqramının icrası, kitabxana filiallarının birləşdirilməsi, kitabxanaların informasiyalaşdırılması, kitabxana-informasiya sahəsində müasir iş üsullarının tətbiqi, habelə yerlərdə metodiki köməyin göstərilməsi məqsədi ilə ölkənin regionlarında müxtəlif tədbirlər keçirilmişdir. Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyinin təşkilatçılığı ilə Bakıdakı Amerika Mərkəzində respublikanın 4 şəhər və rayon mərkəzi kitabxanasının nəzdində fəaliyyət göstərən Amerika Mərkəzlərinin ənənəvi illik konfransı keçirilmişdir.

Mədəniyyət və Turizm nazirliyi tərəfindən «İlin kitabxanası» baxış-müsabiqəsi və kitabxanaçıların peşə ustalığı üzrə «İlin kitabxanaçısı» respublika müsabiqələrinin keçirilməsi haqqında əsasnamələr hazırlanmış və təsdiq edilmişdir.

Avropa Şurasının ATHENA layihəsi çərçivəsində hazırlanmış «Mədəniyyətə aid veb-saytların istifadəçi ilə qarşılıqlı təsiri» adlı kitab Nazirlik tərəfindən birgə layihə əsasında Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmiş və respublikanın kitabxanalarına göndərilmişdir. Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı Səfirliyinin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinə Azərbaycan-rus dillərində lüğət, Azərbaycan dilini öyrənmək üçün danışıq və tədris kitabları, Dağlıq Qarabağ münaqişəsinə dair nəşrlər, müasir Azərbaycan yazıçılarının rus dilində olan əsərləri, Azərbaycan uşaq ədəbiyyatı və digər ədəbiyyatlar göndərilmişdir. Azərbaycan Dövlət Tibb Universitetinin müraciətinə əsasən universitetin kitabxanası kitablarla zənginləşdirilmişdir.

Kitabxana-informasiya sahəsində müasir təcrübənin öyrənilməsi məqsədi ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları Litva Respublikasına ezam olunmuşlar. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında mütəmadi olaraq Elektron kataloq və Elektron kitabxanaya dair təlimlər keçirilir. Bu müddət ərzində 5 treninq keçirilmiş və həmin treninqlərdə respublikanın regionlarında fəaliyyət göstərən kitabxanalardan 80-dən çox kitabxanaçı iştirak etmişdir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən Mədəniyyət və Turizm Nazirliyinin təşkilati dəstəyi ilə Bakı şəhərində fəaliyyət göstərən internat məktəbləri arasında ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş «Dost ölkələrə səyahət: Əzizləyər hər el səni öz adətilə» adlı müsabiqə keçirilmişdir. Müsabiqə iştirakçılarına Nazirlik tərəfindən Fəxri

fərmanlar təqdim olunmuş, müsabiqənin qalibinə isə 1 dəst kompyuter avadanlığı hədiyyə edilmişdir. Beynəlxalq kitab mübadiləsi çərçivəsində İsveç, Mərakeş, Belarus, Türkiyə, ABŞ, Rusiya, Moldova və bir sıra digər ölkələrdə fəaliyyət göstərən kitabxanalara nəşr olunmuş kitablar göndərilmişdir. Respublikada fəaliyyət göstərən kitabxanaların mövcud vəziyyətini yaxşılaşdırmaq, habelə respublikanın kitabxana-informasiya sahəsini müasir dünya standartlarına çatdırmaq məqsədilə «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin inkişafı və kitabxana xidmətinin yeniləşdirilməsi üzrə Dövlət Proqramı (2014–2020-ci illər)» və Tədbirlər Planının layihələri hazırlanmışdır.

Kitabxanaların beynəlxalq əlaqələrini genişləndirmək, kitabxana sahəsində beynəlxalq təcrübəni tətbiq etmək məqsədilə, Azərbaycan kitabxanaçıları sentyabr ayında Nazirliyin vəsaiti hesabına Anapada keçirilən XV Beynəlxalq Konfransda iştirak etmişlər.

## ƏDƏBİYYAT

2. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik. 2 cilddə. C.1. Bakı: BDU, 2003, 314 s*

3. *Xələfov A. Məqalələr toplusu (1990-2011-ci illər). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011, 464s.*

4. *mct.gov.az*

## INFORMATION FUNCTION AS A MAJOR FACTOR IN THE LIBRARIES OF INFORMATION

E.M.ZARBALIYEVA

***SUMMARY***

*The article is devoted to the informational function – one of the social functions of the Libraries.*

*The article deals with the place and role of libraries in the informational society, the definition of their activities according to the requirements of modern society, and the importance of informational functions as the main driving force in this area. The memorandum between our republican and foreign libraries for exchange of information is signed, the exchange of books is realized, international conferences are organized.*

***Key words:*** *Social institution, Modern Library, informational function, The National Library and Informational Center, information exchange*





## ИНФОРМАЦИОННЫЕ ФУНКЦИИ БИБЛИОТЕК КАК ОСНОВНОЙ ФАКТОР ИНФОРМАТИЗАЦИИ

Э.М.ЗАРБАЛИЕВА

***РЕЗЮМЕ***

*Статья посвящена информационной функции - один из социальных функций библиотек.*

*В статье рассматриваются место и роль библиотек в информационном обществе ,определение их деятельности в соответ-ствии с требованиями современного общества, изначимость информа-ционных функций в качестве главной движущей силы в этой области. Меморандум между нашими республиканских и зарубежных библиотек для обмена информацией подписан,обмен книгами реализуется , международные конференции организованы .*

***Ключевые слова:*** *Социальный институт, Современная библиотека, информационная функция, Национальная Библиотечно-Информационный Центр, обмен информацией*